*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    6 fevral 2019-cu il    № 10 (2327)    Qiyməti 30 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir



*Düşmənlə təmas xətti... Səngər... Elə bir məkan ki, burada Azərbaycan əsgəri Vətən torpaqlarının keşiyini çəkir... Bəlkə də kimlər üçünsə bu ifadə heç bir məna daşımır. Ancaq torpaqları işğal altında olan bizlər üçün bura əsl kişilik məktəbidir. Hərbçilər arasında bir deyim var: "Vətən səngərdən başlayır". Səngər - Vətən üçün sinəsini sipər edən qəhrəman oğullarımızın son nəfəslərinədək düşmənlə döyüşdə şəhid olduqları yerdir. Bu yerlər canını Vətən uğrunda qurban verənlərin qanıyla qarışıb. Bu səbəbdən bizim üçün müqəddəsdir.*

Düşmənlə təmas xəttində xidmət edən əsgərlərimiz də yaxşı bilirlər ki, onlar qəsbkarlara, Vətənimizə qarşı tuşlanan hər bir mərmiyə qarşı yalnız deyillər. Onlarla bərabər bu yerlərdə şəhid olan qardaşlarımızın ruhu Vətənimizə keşik çəkir. Nə qədər ki, işğalda olan torpaqlarımız azad olunmayıb, onların da ruhu rahatlıq tapmayacaq. Qəhrəman oğullarımızın davamçıları olaraq biz də Vətənimizin cənnət guşəsinə qovuşmağın həsrətindəyik. Hər birimizin səngərə daxil olanda qanı qaynayır, düşmənin törətdikləri vəhşiliklərə görə hesab verməyini istəyirik. 2016-cı ilin aprelində döyüşçülərimiz düşmənin təxribatlarının qarşısını alaraq, torpaqlarımızın bir qismini azad etdilər. Qəhrəmanlıq nümunələri göstərdilər, düşmənə törətdikləri vəhşiliklərin bədəlini ödəməyə məcbur etdilər. Bu gün də onların göstərdikləri qəhrəmanlıq hər birimiz üçün nümunədir. Onların fədakarlıqları bir daha sübut etdi ki, ordumuzun sırasında xidmət edən hər bir əsgər xalqına, dövlətinə sədaqətlə xidmət edərək, hər an Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə işğal altında olan torpaqlarımızı azad etməyə hazırdır.

**(Ardı 3-cü səhifədə)**

# Hər birimiz Vətən üçün bir əsgərik

*Azərbaycan Ordusunun yaranmasının, Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlar yaddaşlardadı. Bu paradlarda dünya ictimaiyyəti aprel zəfərini qazanmış Azərbaycan Ordusunun arsenalını da gördü, şəxsi heyətin döyüş əzmini də. Gördü və dərk etdi ki, bu işğalın sonuna az qalıb, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad edəcəkdir.*

Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı möhtəşəm tədbir kimi tarixləşdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin toplantıda geniş məzmunlu çıxışını gənclər qarşıda duran vəzifələr kimi dinlədilər. İctimai həyatın bütün sahələrini əhatə edən çıxış mahiyyəti etibarilə dövlətə, dövlətçiliyə sədaqət ruhudur, Vətənə sevgidir. Gənclər bu ruhu, bu sevgini daha böyük məsuliyyətlə yaşadacaqlar.

Ölkə başçısı çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, bu münaqişənin davamı olan elan edilməyən müharibədən, beynəlxalq təşkilatların bu münaqişəyə və bu müharibəyə münasibətindən də danışdı. Böyük əksəriyyəti gənclər olan ordumuzun qarşısında duran vəzifənin mahiyyətini xatırlatdı, torpaqlarımızın işğaldan azad ediləcəyini bildirdi.

Yüksək döyüş ruhuna, dönməz qələbə əzminə malik olan Azərbaycan Ordusu Ali Baş Komandanın qətiyyətlə dediyi fikirdən qürurlanır: "Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir." Böyük Qələbəni də Ali Baş Komandanın əmriylə gənclər - ordumuz qazanacaq.

Toplantı Azərbaycan gənclərini bir amal ətrafında birləşdirib: hər birimiz Vətən üçün bir əsgərik!

**"Azərbaycan Ordusu"**

# "Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər"

*Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı Azərbaycan Ordusunun və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlardan sonra keçirilən geniş miqyaslı böyük tədbir kimi tarixləşdi. Toplantıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı Azərbaycan gənclərinin sosial həyatımızda iştirakına verilən dəyər kimi dinlənildi. Ölkə başçısının bu tarixi çıxışı müharibə şəraitində yaşayan bir dövlətin gənclərinin yerinə yetirməli vəzifələrinin tezisləri kimi qəbul edildi.*

*Toplantı iştirakçıları bu tarixi günün təəssüratlarını unutmayacaqlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı hərbçi gənclərin də, sabahın hərbçilərinin də döyüş əzmini, qələbə ruhunu yüksəldib. Hamı əmindir ki, yaxın vaxtlarda torpaqlarımız işğaldan azad ediləcəkdir.*



Qarabağ qazisi Kamil Musavi çıxışında dedi:

- Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir. Bu gün Azərbaycanın gələcəyi olaraq biz gənclərin üzərinə çox böyük vəzifələr düşür. Onlardan biri və birincisi vətənpərvər olmağımızdır. Hər bir gənc vətənpərvər olmalıdır, Vətənini sevməlidir. Vətənpərvər olmaq təkcə hərbi forma geyinib səngərdə dayanmaq deyil. Hər bir insanın vətənpərvərliyi öz sahəsində Vətəninə, xalqına, millətinə vicdanla xidmət etməsidir.

Mən bu gün burada həm Azərbaycan Ordusunu, həm Qarabağ qazilərini təmsil edirəm. Bildirmək istəyirəm ki, biz hər zaman döyüş əhval-ruhiyyəsi ilə yaşayırıq. Biz torpaqlarımızı düşmən tapdağından azad etmək arzusundayıq.

Bir zamanlar hücum əmri sanki yaddaşımızdan silinmişdi. Amma aprel döyüşlərində gözlənilməyən anda Ali Baş Komandanın "İrəli" əmri verməsi ordunun qələbə əzmini kükrətdi.

Ali Baş Komandan çıxışlarının birində demişdi: "Biz öz doğma torpaqlarımızı heç kimə verməyəcəyik və heç bir zaman bu vəziyyətlə barışmayacağıq". Bu fikirlər dünyaya sübut etdi ki, Ermənistanın işğalçılığının sonuna az qalıb. Azərbaycan əsgəri Ali Baş Komandanın "İrəli" əmrinə hazırdır.

"İrəli" əmri veriləndə biz qazilər də əmrdən kənarda qalmayacağıq. Kimlərsə düşünər ki, bədənin hər hansısa bir üzvünü itirmiş insanlar necə döyüşə bilər? Amma ayağı olmayanlar sürünərək, gözləri görməyənlər hiss edərək döyüşə gedəcəklər. Yetər ki, müstəqil Azərbaycanımız var olsun!

* * *

Şəhid polkovnik-leytenant Raquf Orucovun oğlu Aqşin Oruclu çıxışında dedi:

- Mən aprel döyüşlərində qəhrəmanlıqla şəhid olmuş polkovnik-leytenant Raquf Orucovun oğluyam və şəhid oğlu olmağımla fəxr edirəm.

Aprel döyüşlərində atamın Vətənimiz uğrunda qəhrəmancasına şəhid olması bizə böyük qürur hissi yaşadır. Ordumuzun aprel döyüşlərindəki qələbəsi Azərbaycan Ordusunun gücünü, əzmini və qətiyyətini göstərdi. Bütün dünyaya məlumdur ki, torpaqların qorunması, azadlıq və müstəqillik itkisiz əldə edilmir. Buna baxmayaraq, Vətən, torpaq uğrunda şəhid olan igid və qəhrəmanlarımız Azərbaycan var olduqca yaddaşlarda yaşayacaq.

Mən bir gənc kimi, dövlətimizə layiqli vətəndaş olmaq istəyirəm. ADA Universitetinin tələbəsiyəm. Sosial müdafiəyə ehtiyacı olan digər ailələr kimi mənim də təhsil haqqım dövlətimiz tərəfindən ödənilir.

Azərbaycan Respublikasının Prezidenti bu günlərdə şəhid ailələri ilə keçirdiyi görüşdə, şəhid valideynlərinə göstərilən qayğı və nəvaziş xalqımız tərəfindən qürur hissi ilə qarşılandı. Bu, biz gənclər üçün gözəl nümunə oldu. Azərbaycan Respublikası Prezidentinin şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün verdiyi Sərəncama uyğun olaraq, biz də digər şəhid ailələri kimi 11 min manat vəsaiti almışıq.

Qərara gəldik ki, Qarabağ döyüşçülərinin və qazilərinin, şəhidlərin təbliği işinə biz də qoşulaq. Bu məqsədlə 2016-cı ilin aprel döyüşlərində şəhid olanların ailə üzvləri birləşərək ictimai birlik yaratdıq. Ümid edirik ki, gördüyümüz işlərlə dövlətin bu sahədə həyata keçirdiyi siyasətə kiçik töhfə verərik. Güman edirik ki, bu iş valideynlərimizin ruhunu şad edib.

Biz gənclər şəhidlərin şərəfli yolunu davam etdirməyə hazırıq. Mən bu gün bir gənc, bir şəhid övladı kimi bir daha əmin oldum ki, respublikamızda həyata keçirilən siyasətin əsasında sosial ədalət prinsipi hər şeydən yüksəkdə dayanır. Azərbaycan Respublikasının Prezidenti və birinci xanım Mehriban Əliyeva sosial müdafiəyə ehtiyacı olanlara hər zaman xüsusi diqqət və qayğı ilə yanaşırlar.

Biz gənclər ölkə başçısının tövsiyələrini böyük məsuliyyətlə yerinə yetirəcəyik.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 fevral 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Voskevan kəndlərində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım və Qızılhacılı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***5 fevral 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə və İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Yarımca, Ağdam rayonunun Cəvahirli, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Kürdlər, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Nümunəvi xidmət*

# Bacarıqlı atıcı



Azərbaycan Ordusu günün tələbinə uyğun olaraq ildən-ilə peşəkarlığını, təcrübəsini, qüdrətini artırır. Əsas məqsəd Azərbaycan əsgərinin müasir tələblər səviyyəsində formalaşmasını təmin etməkdir. Bu gün əsgərlərimiz təlimdə möhkəmlənərək yüksək döyüş bacarığına yiyələnirlər. Tabeliklərində olan silah və texnikanın sirlərini öyrənirlər. Bu bacarığı, bu təcrübəni əsgərlərimizə aşılayan peşəkar hərbçilərimizdir.

Yenə də ön xətt bölmələrimizdən birindəyik. Düşmənlə üz-üzə dayanıb torpaqlarımızı qoruyan, onun müdafiəsinə hər an hazır olan zabit və əsgərlərimizlə görüşürük. Hərbi xidmətə gəldiyi ilk gündən döyüş hazırlığını artıran və adı daim nümunəvi əsgərlər sırasında çəkilən əsgər Şəhriyar Feyziyevin döyüş növbəsindən yenicə qayıtdığını öyrənirik. Xidmətdə fərqlənən və dəfələrlə komandanlıqdan təşəkkür alan bu əsgəri bizə zabit Seymur Abıyev təqdim etdi. Öyrənirik ki, Şəhriyar şəxsi heyət arasında özünü vətənpərvər, bacarıqlı və qorxmaz bir əsgər kimi tanıdıb. Komandirlərinin etimadını qazanıb. Xidmətdə göstərdiyi səy və bacarığı, çalışqanlığı ilə digər əsgərlərə nümunədir. Torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanır. Onun bacarığı və təlimdə qazandıqları hər addımında hiss olunur. Nümunəvi əsgər Ş.Feyziyev hədəfləri dəqiq vurur, komandirlərinin tapşırıqlarını layiqincə yerinə yetirir.

Hərbi xidmətini barıt qoxulu səngərdə çəkməyi ilə fəxr etdiyini deyən Şəhriyar bu gün Vətən qarşısında övladlıq borcunu şərəflə yerinə yetirir. Vətənimizin ərazi bütövlüyü və torpaqlarımızın azadlığı naminə içdiyi Hərbi andına sadiq qalan əsgər qürurla bildirdi: "Təlim və məşqlərdə fəal iştirak edərək hərbi vərdişlərə yiyələnmişəm. Təlim çalışmalarında yaxşı nəticə göstərib uğur qazanmışam. Bütün bu xidmətdəki uğurlarıma görə komandirlərimə borcluyam. Onlara daim minnətdaram. Məhz komandirlərimin sayəsində bilik və bacarığa nail olmuşam. Lakin topladığım bu təcrübə ilə kifayətlənmir, onu daim artırmağa çalışıram. Mən də öz növbəmdə təcrübədə qazandığım bilik və bacarığımı xidmətdə ilk addımlarını atan əsgərlərə öyrədirəm".

- Səngərdə xidmət etmək çətin deyil?

- Əksinə, şərəfdir. Səngərdə dayanıb Vətən torpağının keşiyini çəkmək və xalqının sənə güvənini hiss etmək çox qürurvericidir.

Döyüş növbəsindən qayıdan Şəhriyar bir azdan dincəlmək üçün yoldaşlarının yanına gedəcək. Sonra komandirlərinin tapşırığına əsasən, döyüşçü yoldaşları ilə birlikdə tabeliklərində olan silahların təmizlənməsi işinə başlayacaqlar. İnanırıq ki, xidməti vəzifəsinin öhdəsindən bacarıqla gələn nümunəvi əsgər Şəhriyar Feyziyev Vətənin müdafiəsində həmişə ayıq-sayıq dayanacaq, düşmən atəşkəsi pozduğu təqdirdə onu cəsarətlə susduracaq. Valideynlərinin, doğmalarının yanına alnıaçıq və başıuca qayıdacaqdır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir

(Əvvəli 1-ci səhifədə)

Yenə də Vətənin keşiyində mətinliklə dayanan igidlərimizin yanındayıq. Leytenant Ədalət Novruzov bölmənin fəaliyyəti barədə məlumat verir. Zabit bildirir ki, tabeliyində xidmət edən şəxsi heyət öhdəsinə düşən vəzifəni, verilən tapşırıqları dəqiq və vaxtında yerinə yetirməklə, göstərilən etimadı doğrultmağa çalışır. Öyrənirik ki, Ədalət Lənkəran Dövlət Universitetinin məzunudur. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra zabit kimi xidmətini davam etdirmək qərarına gəlib. Komandanlıq da vətənpərvər oğlumuzun bu addımını yüksək dəyərləndirib. Valideynləri də gənc zabitimizə Vətəninə sədaqətlə xidmət etməyi, komandirlərin əmrlərini dəqiq və vaxtında yerinə yetirməyi, tabeliyində olanlardan isə diqqət və qayğısını əsirgəməməyi məsləhət görüblər. "Əminliklə deyə bilərəm ki, atalarımızın bizlərə əmanət etdiyi Vətən torpaqlarını mərdliklə, göz bəbəyimiz kimi qoruyuruq. Hər an Ali Baş Komandanımızın döyüş əmri ilə işğal altında olan torpaqlarımızı azad etməyə hazırıq. Həmişə Vətənə şərəflə xidmət edən igidlərimizin hərbi biliklərini, vərdişlərini artırmağa çalışırıq. Bunun üçün praktiki məşğələlərin keçirilməsinə üstünlük veririk. Tabeliyimdə xidmət edən hər bir əsgər öyrədilənləri məsuliyyətlə mənimsəyir. Biz komandirlər də mütəmadi olaraq məşğələlərdə fərqlənənləri fəxri fərmanla, nümunəvi xidmətə görə məzuniyyətlə, həmçinin müxtəlif qiymətli hədiyyələrlə mükafatlandırırıq. Onlar da dərslərə daha ciddi yanaşırlar. Hərbi hissədə əsgərlərimizin nümunəvi xidmət etmələri üçün hər cür şərait yaradılıb".



- Vətənpərvərlik, fədakarlıq olmasa, heç kim uğur qazana bilməz, - deyə əsgər Müşfiq Hacıyev söhbətə başlayır. - Düşmənlə təmas xəttində xidmət etmək şərəflidir, burada döyüş tapşırığını yerinə yetirdiyimə görə qürur duyuram. Ordu sıralarına çağırıldığım ilk günlərdə silahlar və hərbi xidmət haqqında məlumatım az idi. Komandir heyətinin köməkliyi ilə silahımın taktiki-texniki xüsusiyyətlərini öyrəndim, hərbi vərdişlərə yiyələndim. Məşğələlərə həvəslə yanaşaraq öyrədilənləri dərindən mənimsədim. Təlimlərdə nəzəri biliklərdən istifadə etməklə təcrübəmi daha da artırdım. Komandirlərimiz həmişə vurğulayırlar ki, yüksək bilik və bacarıq əsgərə başucalığı gətirir. İndi öz vəzifəmi mükəmməl bilirəm, verilən tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışıram. Yaxşı bilirik ki, üzərimizə böyük məsuliyyət düşür. Çünki Vətənimizi qorumaq biz əsgərlərə tapşırılıb. Bizlər də torpaqlarımızın keşiyində ayıq-sayıq dayanırıq.

Əsgər Hidafət Nəzərov bildirir ki, Vətənin müdafiəsində dayanmaq, gələcəkdə əsgər olmaq uşaqlıq arzusu idi. "Hərbi xidmətə gəlməzdən əvvəl valideynlərimdən və müəllimlərimdən müharibə illərindən danışmaqlarını istəyərdim. Onlar da acılı-kədərli xatirələrindən, həmin günlərin çətinliyindən, ermənilərin fitnəkarlığından, igidlərimizin göstərdiyi şücaətlərdən danışardılar. Həmişə deyərdilər ki, ermənilər bizim qonaqpərvərliyimizdən istifadə edib namərdcəsinə xalqımızı arxadan vurdular. Həmişə belə söhbətlərdən təsirlənərdim. Böyüyüb boya-başa çatan kimi mən də əsgər olacam, Vətənimi yağılardan müdafiə edəcəm deyərdim. Əsgərliyə çağırış vərəqəsi gələndə çox sevinirdim. Nəhayət ki, vaxt gəlib çatmışdı, mən də Vətənimizi qoruyacaqdım. Atamın məni hərbi xidmətə yola salanda dediyi sözlər heç vaxt yadımdan çıxmaz: "Oğul, çox istərdim ki, mənə Zəfər xəbərini sən verəsən". Qoy mənfur düşmən bilsin ki, minlərlə cəsur Azərbaycan əsgərinin qarşısında dayanıb və tezliklə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında igid oğullarımız düşmən tapdağı altında olan torpaqlarımızı azad edəcək, üçrəngli bayrağımızı Şuşada, Laçında, Kəlbəcərdə və digər torpaqlarımızda dalğalandıracaqlar".

- Döyüşçü olmaq üçün öz millətini, dövlətini sevməli, varlığınla Vətəninə bağlı olmalısan, - deyə əsgər Mütəllimağa Cabbarov da fikirlərini bölüşür. Vətənin keşiyində dayanan igidimizin sözlərinə görə, müasir, döyüşkən gəncliyi olan Azərbaycan dövləti tezliklə işğal altında olan torpaqlarını azad edərək, ərazi bütövlüyünü təmin edəcəkdir. "Ordu cəmiyyətin bir hissəsidir. Hərbi xidmət isə hər bir gəncin Vətəni qarşısında mənəvi borcudur. Burada bizlər Vətənimizi müharibə zamanı işğalçı dövlətdən necə müdafiə etməyi öyrənirik. Bütün dünya ictimaiyyətinə məlumdur ki, ermənilər torpaqlarımızı işğal ediblər. Bu səbəbdən apardığımız mübarizə haqq işidir. Bu yolda xalqımız ordusuna inanır və hər zaman olduğu kimi öz əsgərinin yanındadır. Bunun bariz nümunəsi 2016-cı ilin aprelində müşayiət edildi. Xalqımız ordusuna dəstəyi ilə artıq səbrinin tükəndiyini, torpaqlarımızı azad görmək istədiyini açıq bəyan etdi. Əgər işğalçı dövlət sülh yolu ilə torpaqlarımızı azad etmək istəməsə, gücümüzü onlara bir daha sübut edəcəyik. Biz müstəqil Vətənimizi son qarışına kimi azad görmək istəyirik və Böyük Qələbənin sevincini xalqımıza mütləq bəxş edəcəyik."



- Vətənimin əsgəri olaraq xidmətə gələcək qardaşlarıma demək istərdim ki, nizamnamə qaydalarına, komandirlərin əmrlərinə ciddi riayət etsinlər. Düşmənlə təmas xəttində xidmət etdiyimizi nəzərə alsaq, biz əsgərlər təhlükəsizliyimiz üçün bunlara əməl etməliyik. Əsgərlik həyatı ilk vaxtlarda hər kəsə çətin gələ bilər, ancaq burada dost qazandıqdan, ailəndən uzaqda yaşamağı, hər an döyüşə hazır olmağı öyrəndikdən sonra hər şey sadələşir. Bütün bunlar da bir növ imtahandır. Yeniyetmə dövründən müstəqil həyata keçməyimiz üçün ancaq müsbət qiymətlər tələb edən imtahan. İmtahanın nəticəsi hərbi xidmət müddətində öyrədilənləri müvəffəqiyyətlə mənimsəməkdir. Bu səbəbdən xidmətin sonunda hər bir Azərbaycan əsgəri güclü iradəsinə, qorxmazlığına, savadına görə özü ilə fəxr edə bilər. Necə ki, mən qüdrətli Azərbaycan Ordusunun əsgəri olmağımla qürur duyuram, - bu sözləri əsgər Etibar Rüstəmov deyir.

Əsgərlərdən Ceyhun Abbasov, Cəlal Ömərov da bildirirlər ki, Vətənimizin keşiyində ayıq-sayıq, mətinliklə dayanan oğullarımız işğal altında olan torpaqlarımızı azad etməyə hazırdırlar.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Azərbaycan NATO-nun dağ qış təlimlərində təmsil olunur

*NATO-ya üzv və tərəfdaş ölkələrin silahlı qüvvələrinin nümayəndələri alyansın "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Gürcüstanda keçirilən aralıq dağ qış təlimlərində iştirak edirlər.*

Bu barədə AZƏRTAC-a Gürcüstanın Müdafiə Nazirliyindən məlumat verilib. Məlumatda deyilir ki, polkovnik Besik Kutateladze adına Saçxere Qış Təlim Məktəbi tərəfindən Qudauri (Mtsxeta-Mtianeti bölgəsi) dağlarında keçirilən təlimdə Litva, Belarus, Azərbaycan, Ukrayna və Gürcüstandan 14 hərbçi iştirak edir.Təlimlərdə hərbçilər xizəklər üzərində texnikanın idarə olunması, maneələrdən və sərt dağ yamaclarından keçirilməsi, gecələr qar altında sığınacaq yaradılması və qar uçqunu altında qalmış şəxslərin xilas edilməsi qaydalarını öyrənir, bacarıqlarını artırırlar.



Bu, təlimlərin artıq ikinci mərhələsidir. Hərbçilərin qışda dağ hazırlığının ilk mərhələsi Smtsxe-Cavaxetiya bölgəsinin Abuli dağlarında olub.

Təlim kursu fevralın 8-də başa çatacaq. Kursu müvəffəqiyyətlə bitirən hərbçilərə döş nişanı və sertifikatlar veriləcək.

# "Dağlıq Qarabağ münaqişəsi davam etdikcə Ermənistan iqtisadiyyatı nələri itirəcək"

*Özbəkistanın tnews.uz portalı "Berlin Economics" şirkətinin tədqiqatları əsasında rus dilində "Dağlıq Qarabağ münaqişəsi davam etdikcə Ermənistan iqtisadiyyatı nələri itirəcək" sərlövhəli məqalə yayıb.*

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tam tənzimlənməsinin Ermənistana iqtisadi, sosial və digər sahələrdə gətirəcəyi faydalardan bəhs edilir. Qeyd olunur ki, münaqişə ilə əlaqədar Ermənistana sərmayə qoymaq istəyən şirkətlərin sayı çox azdır. Əgər münaqişə həll olunsa, Ermənistana investisiya qoyuluşu da artar. Həmçinin Ermənistanın Türkiyə ilə ticarət əlaqələri də qaydaya düşər.

Məqalədə Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğal etməsi barədə ətraflı məlumat verilir. Münaqişə nəticəsində ölənlər, yaralananlar, dağıdılan abidələr, muzeylər haqqında söhbət açılır.

# Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirilib



*2 Fevral Azərbaycan Gəncləri Günü münasibətilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirilib.*

Toplantıda Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbərliyi, veteranlar, Azərbaycan Ordusunda xidmət edən gənclər, aprel zəfərinin qazanılmasında, həmçinin Naxçıvanın Günnüt və digər strateji yüksəkliklərinin azad edilməsində xüsusi xidmətləri olmuş hərbi qulluqçular, mətbuat və ictimaiyyət nümayəndələri iştirak ediblər. Toplantıdan əvvəl Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin abidəsi, eləcə də, Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının məzarları ziyarət olunub.

Tədbir iştirakçıları "Heydər Əliyev və Azərbaycan gəncliyi", "Gənclərə qayğı Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir" və "Ordu gəncləri böyük qüvvədir" mövzularında fotosərgilərə baxıblar. Prezidentin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani qonaqlara sərgilər barədə ətraflı məlumat verib.

A.Qurbani hər il ölkəmizdə geniş qeyd edilən Azərbaycan Gəncləri Gününün ümummilli



lider Heydər Əliyevin Sərəncamı ilə təsis olunduğunu diqqətə çatdırıb. Vurğulanıb ki, bu, Ulu Öndərin Azərbaycan gəncliyinə ali diqqət və qayğısının bariz nümunəsidir. Prezident İlham Əliyev gənclər siyasətində yeni mərhələnin başlanğıcını qoyub. Gənclərə qayğı bu gün ölkəmizdə milli dövlət siyasətinin ən mühüm istiqamətlərindən birinə çevrilib.

Sonra ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.

Toplantıda dövlət gənclər siyasəti ilə bağlı videoçarx nümayiş olunub, ümummilli liderimiz Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin gənclərlə bağlı fikirləri səsləndirilib.

Cəbhə bölgəsindən gəlmiş gənc zabit, mayor Orxan Rüstəmov qeyd edib ki, bir gün əvvəl Gənclər Günü münasibətilə keçirilən respublika toplantısında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin proqram xarakterli nitqi hər bir Vətən əsgərinin də döyüş ruhunu, vətənpərvərlik hissini artırıb. Bu gün biz bura Prezidentimizə, Vətənimizə, xalqımıza, dövlətimizə sədaqətimizi bəyan etmək üçün toplaşmışıq.

Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov tədbirdə çıxış edərək hərbçi gənclərimizi Azərbaycan Gəncləri Günü münasibətilə təbrik edib. Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan Gəncləri Gününün təsis edilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Gənclərə xüsusi qayğının Azərbaycan Prezidenti İlham Əliyevin də daim diqqət mərkəzində olduğunu qeyd edən Fuad Ələsgərov deyib ki, dövlətimizin başçısının sərəncamları ilə təsdiq edilən gənclər sahəsində strategiya və dövlət proqramlarının məqsədi ölkəmizdə gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı potensialının üzə çıxarılmasını dəstəkləməkdir.

Fuad Ələsgərov dövlətimizin başçısının Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında gənclərə tövsiyələr verməsini, fəal gənclərin bir qrupunu mükafatlarla təltif etməsini ölkə gəncliyinə göstərilən yüksək diqqət və qayğının təzahürü olduğunu vurğulayıb. Qeyd olunub ki, bu gün Azərbaycan gəncliyi ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir. Silahlı Qüvvələrimizdə xidmət edən əsgər və zabitlərin böyük əksəriyyəti gənclərdən ibarətdir. Minlərlə gənc əsgər və zabitimiz təcavüzkar Ermənistan ordusuna qarşı döyüşlərdə qəhrəmanlıq göstərib, Vətən uğrunda canlarını və sağlamlıqlarını qurban verib, adlarını müasir hərb tariximizə qızıl hərflərlə yazdırıblar. 2016-cı ilin aprel döyüşləri zamanı xalqımıza qələbə sevinci bəxş edən döyüşçülərin arasında gənclər çoxluq təşkil edirdi.

Düşmənə qarşı hərbi əməliyyatlarda şücaət göstərmiş qəhrəman əsgər və zabitlərimizlə xalqımızın qürur duyduğunu vurğulayan Prezidentin köməkçisi deyib: "Torpaqları hələ də işğal altında olan Azərbaycan üçün ordu quruculuğu ən vacib məsələlərdən biridir. Bu sahədə indiyədək çox iş görülüb. Azərbaycan hərbi-texniki sahədə dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığı inkişaf etdirib, ordumuz ən müasir silahlar, reaktiv artilleriya və hava hücumundan müdafiə sistemləri, hərbi təyyarələr, gəmilər və digər texnika ilə təchiz olunub. Bununla yanaşı, ölkəmizdə güclü müdafiə sənayesi yaradılıb, 20-dən çox hərbi zavod inşa edilib. Bu zavodlarda 1200 adda hərbi təyinatlı məhsullar istehsal olunur".

Görülmüş işlərin nəticəsi olaraq bu gün Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında yer aldığını vurğulayan Fuad Ələsgərov bildirib ki, 2016-cı ilin aprel döyüşləri və 2018-ci ilin mayında aparılmış uğurlu əməliyyat nəticəsində torpaqlarımızın bir hissəsi işğaldan azad edilib, strateji yüksəkliklər ordumuzun nəzarəti altına



keçib. Böyük məharət və peşəkarlıqla həyata keçirilmiş bu əməliyyatlar Azərbaycan hərbçilərinin qəhrəmanlığını, ordumuzun yüksək döyüş qabiliyyətini bir daha nümayiş etdirib.

Xüsusi vurğulanıb ki, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsini də həmişə diqqət mərkəzində saxlayır. Son illər xeyli sayda hərbi şəhərcik yaradılıb, hərbi hissələrimizin 80 faizi yenilənib və ya əsaslı təmir edilib. Ötən ilin dekabrında paytaxtın Sabunçu rayonunda 400-dək hərbi qulluqçuya yeni mənzillər verilib. Bu işlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

Orduda xidmət edən zabit və əsgərlərin vətənpərvərliyinin vacib amil olduğunu deyən Fuad Ələsgərov yuxarı sinif şagirdlərinin hərbi hissələrə səfərlərinin, qəhrəman əsgər və zabitlərimizlə görüşlərinin, "Əsgərə məktub" və digər sosial tədbirlərin təşkilinin, görkəmli şəxsiyyətlərin, ictimai xadimlərin əsgərlərimizə tez-tez baş çəkmələrinin bu baxımdan önəmini qeyd edib.

Aprel döyüşlərinin qəhrəmanlarından biri, "Azərbaycan Bayrağı" ordenli Tahir Misirxanov işğal altındakı bütün torpaqlarımızın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmən tapdağından azad ediləcəyinə və böyük qələbə bayramının qeyd olunacağına əminliyini bildirib. Aprel döyüşləri ilə bağlı xatirələrini bölüşən T.Misirxanov deyib: "Mən xidmət etdiyim hərbi hissənin, birliyin gəncləri adından Prezidentimizi və Müdafiə Nazirliyinin rəhbərliyini, eləcə də bütün toplantı iştirakçılarını əmin edirəm ki, aprel zəfərini təkrarlamağa və Qarabağa böyük qayıdışı təmin etməyə hər an hazırıq və buna qadirik. Hərbçi gənclər böyük qüvvədir və fəxr edirəm ki, mən də onların sıralarındayam".

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirməsi, Azərbaycanın Milli Qəhrəmanı, şəhid mayor Rasim İbrahimovun yolunu davam etdirən oğlu kapitan Nizami İbrahimov atasının Vətən uğrunda son gülləsinədək vuruşduğunu, yaralanmasına baxmayaraq, düşmənə təslim olmadığını, qumbaranı sinəsinə sıxaraq bir neçə düşmən zabitini məhv etdiyini və şəhidlik zirvəsinə ucaldığını bildirib. Atasına Azərbaycanın Milli Qəhrəmanı adının ölümündən iki il sonra ulu öndər Heydər Əliyevin Fərmanı ilə verildiyini xatırladan gənc kapitan onların ailəsinin dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunduğunu deyib.

(Ardı 5-ci səhifədə)

# Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirilib





(Əvvəli 4-cü səhifədə)

Şəhid ailələrinə göstərilən qayğıya görə minnətdarlığını bildirən N.İbrahimov deyib: "Yenidən Prezident seçiləndən sonra cənab İlham Əliyevin ilk Sərəncamı şəhid ailələri ilə bağlı oldu. Dövlətimizin başçısı yanvarın 28-də şəhid ailələri ilə görüşdü. Şəhid vərəsələrinə birdəfəlik yardım kartları təqdim olundu, yeni Sərəncam imzalandı. Şəhid ailələrinə verilən Prezident təqaüdünün artırılması haqqında növbəti Sərəncam bizi bir daha sevindirdi".

Aprel döyüşləri zamanı ermənilərin təxribatlarının qarşısını alarkən düşmənin 12 hərbi texnikasını və xeyli canlı qüvvəsini məhv etdiyinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunan mayor Mirdamət Bağıyev bildirib ki, nizami Azərbaycan Ordusunu yaratması ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında ən böyük xidmətlərindən biridir. Bu ordu dövlətimizin başçısı İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində daha da güclənərək istənilən döyüş əmrini, hücum tapşırığını yerinə yetirməyə hər an hazır olan mütəşəkkil hərbi qüvvəyə çevrilib. Orduda xidmət illərinin İlham Əliyevin prezidentlik dövrünə təsadüf etdiyini vurğulayan zabit deyib: "Dəfələrlə Ali Baş Komandanımızla görüşmək şərəfinə nail olmuşam. Aprel döyüşlərinin ildönümündə Prezidentimizin qəbulunda olduğum günü ömrüm boyu unutmayacağam".

Ötən ilin mayında Günnüt zəfərinin qazanılmasında müstəsna xidmətləri olan Naxçıvanın qəhrəman müdafiəçilərindən kapitan Əlqəm Gözəlov ulu öndər Heydər Əliyevin qurucusu olduğu milli ordumuzun ilk təməl daşının Naxçıvanda qoyulduğunu vurğulayaraq deyib: "Azərbaycan Ordusunda ilk dəfə Naxçıvanda hərbi hissələrə döyüş bayraqları təqdim olundu. Həmin bayraqları Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev təqdim etdi. Naxçıvanda ilk diviziya, ilk Əlahiddə Ümumqoşun Ordu yaradıldı. Bizə Ulu Öndərdən miras qalmış azərbaycançılıq məfkurəsi ən kəsərli silahımızdır. Biz bu torpağın, Odlar diyarının övladlarıyıq, gəncləriyik. Bizim bir Vətənimiz var. O da azad, müstəqil, yenilməz, gündən-günə çiçəklənən, güclü və qüdrətli ordusu ilə fəxr etməyə haqqı olan doğma Azərbaycandır".

İştirakçısı olduğu Günnüt əməliyyatı haqqında danışan gənc kapitan deyib: "Bu uğurlu əməliyyat düşmənlərimizi lərzəyə salıb və onlar çətin ki, özlərinə gələ bilsinlər. Mühüm strateji yüksəkliklərin qısa vaxt ərzində azad edilməsi, 11 min hektar ərazinin nəzarətə götürülməsi hərb tarixində görünməyən hadisədir. Bu möhtəşəm qələbənin qazanılmasında fərqlənən hərbi hissənin döyüş bayrağını Bakıya gətirərək Azadlıq meydanında nümayiş etdirdik".

Yunan-Roma güləşi üzrə Avropa və dünya çempionu, leytenant Həsən Əliyev ulu öndər Heydər Əliyevin ölkəmizdə idmanın və bədən tərbiyəsinin inkişafına da daim böyük qayğı göstərdiyini vurğulayıb. O deyib ki, ordumuzun idmançıları ölkəmizin şanlı idman salnaməsinə parlaq səhifələr yazıb, olimpiadalarda, mötəbər idman yarışlarında Azərbaycan bayrağını dalğalandırıb, himnimizi səsləndiriblər. Müdafiə Nazirliyinin rəhbərliyi orduda bədən tərbiyəsi və idmanın inkişafına, kütləviliyinə ciddi diqqət yetirir. Bu sahədə Mərkəzi Ordu İdman Klubunun xidmətləri danılmazdır. Hərbçi-idmançılarımız Beynəlxalq Hərbi İdman Şurasının xətti ilə keçirilən beş ümumdünya hərbi idman oyununda 78 qızıl, 64 gümüş və 98 bürünc medal qazanıblar.

Hərbi Dəniz Qüvvələrində xidmət edən baş leytenant Ariz Qəhrəmanov bildirib ki, digər qoşun növləri kimi, Hərbi Dəniz Qüvvələrimiz də Ümummilli Liderimizin sayəsində yenidən formalaşıb və hazırda mütəşəkkil qüvvəyə çevrilib. Döyüş gəmilərinin və qüvvələrinin iştirakı ilə keçirilən son irimiqyaslı təlimlər bir daha göstərdi ki, hərbi dənizçilərimiz istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadirdirlər.

Ariz Qəhrəmanov deyib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Puta əsas baza məntəqəsinin və bazada xidmət edən, əksəriyyəti gənclərdən ibarət zabit, miçman və çavuşların sosial-məişət və mənzil şəraitinin yaxşılaşdırılması üçün tikilən yaşayış binalarının və digər hərbi obyektlərin açılışında şəxsən iştirakı hərbi dənizçilərdə böyük ruh yüksəkliyi yaradıb.

Qeyd edilib ki, 2015-ci ildən başlayaraq keçirilən Beynəlxalq Ordu Oyunlarının "Dəniz kuboku" müsabiqəsində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin birinci yeri tutması mühüm nailiyyətdir. Baş leytenant hərbi dənizçilərin qarşıya qoyulan vəzifələrin öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə, digər qoşun növləri ilə birlikdə hərb tarixinə parlaq səhifələr yazacaqlarına əminliyini bildirib.

Ötən il keçirilən möhtəşəm hərbi paradlarda öz məharətlərini göstərən təyyarəçi kapitan Məzahir Səfərov 2001-ci ilin avqustunda indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarının ilk buraxılışında Ulu Öndərin xeyir-duasını məmnunluqla xatırladıb. Hazırda Azərbaycanın milli şahinlərinin əsl peşəkarlıq xüsusiyyətlərinə malik olduqlarını vurğulayan M.Səfərov deyib ki, pilotlarımız hərbi paradlarda peşəkarlıqlarını bir daha nümayiş etdirərək Ulu Öndərin arzularını gerçəkləşdiriblər. "Fəxr edirəm ki, mən də Azərbaycanın milli şahinlərindən biriyəm. Lələtəpə istiqamətində erməni işğalçılarına qarşı əks-hücum əməliyyatlarında qəhrəmanlıqlar göstərərək şəhidlik zirvəsinə ucalmış milli pilotlarımız Təbriz Musazadə, Urfan Vəlizadə və Əbu Bəkr İsmayılovun intiqamını almaq, işğal altındakı bütün torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyir və zəfər yürüşünə hazırıq", - deyə pilot bildirib.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı Tapdıq Mansurov xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı liseydə təhsil almaqdan, yeniyetmə vaxtlarından əsgər çəkməsi, forma geyinməkdən qürur duyduğunu qeyd edib. Hərbi liseyin yetirmələri arasında 20-dən çox general və admiralın, 10-dan çox Milli Qəhrəmanın olduğunu vurğulayan kursant deyib: "Biz Heydər Əliyevin arzuları, Prezident İlham Əliyevin ümidləri və ordumuzun gələcəyiyik. Mən Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almağımla qürur duyur, zabit olacağım günü səbirsizliklə gözləyirəm".



Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbirdə çıxış edərək Azərbaycan Gəncləri Günü münasibətilə hərbçi gəncləri təbrik edib. Ordumuzun döyüş qabiliyyətindən danışan Müdafiə naziri bildirib ki, Azərbaycan Ordusunun qüdrətinin artırılmasının əsasında dövlətimizin və onun rəhbərliyinin yüksək diqqət və qayğısı dayanır. Hərbi büdcəmiz ildən-ilə artır, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Müdafiə naziri deyib ki, son illərdə ölkəmizin dinamik iqtisadi inkişafı və ordumuzun güclənməsi dövlətimizin başçısının uğurlu siyasətinin nəticəsidir. Prezident, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib.

Sonra Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısının iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunub. Müraciətdə deyilir: "Əmin ola bilərsiniz ki, biz həqiqətən, Vətən uğrunda, torpaq uğrunda canımızdan keçməyə, işğal altında olan torpaqlarımızı azad etməyə, ərazi bütövlüyümüzü təmin etməyə hər an hazırıq. Hərbi paradlarda cüzi hissəsini nümayiş etdirdiyimiz ən müasir hərbi texnikalarımız, zenit-raket komplekslərimiz, artilleriya qurğularımız, aviasiya vasitələrimiz və ilk növbədə, Azərbaycan əsgərinin döyüş ruhu, mənəvi-psixoloji hazırlığı, peşəkarlığı, yüksək vətənpərvərlik hissi bunu deməyə əsas verir. Biz Sizin arzularınızı gerçəkləşdirəcək, digər əzəli torpaqlarımızı işğaldan azad edərək orada bayrağımızı dalğalandıracağıq".

Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı Ali Baş Komandana ünvanlanan "Zəfər marşı"nın ifası ilə başa çatıb.

* * *

*Toplantı iştirakçılarının çıxışlarını növbəti sayımızda dərc edəcəyik.*

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

## Mövzu: 26 Fevral - Xocalı faciəsi

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Xocalı faciəsinə dair nəşr olunmuş vəsaitlərdən, dövri mətbuatda çap olunmuş materiallardan, həmin faciənin iştirakçılarının xatirələrindən istifadə etməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**

**1. Xocalı faciəsi ərəfəsində bölgədə yaranmış ictimai-siyasi vəziyyət.**

**2. 26 Fevral - Xocalı faciəsi. Xocalının qəhrəmancasına müdafiəsi.**

**3. Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması. Xocalının qisasını Azərbaycan əsgəri almalıdır.**

### *Xocalı faciəsi ərəfəsində bölgədə yaranmış ictimai-siyasi vəziyyət*

Ermənilərin öz "Böyük Ermənistan" dövləti yaratmaq məqsədi daşıyan cəfəng planlarını həyata keçirmək üçün XX əsrin axırında azərbaycanlılara qarşı törətdikləri ən qanlı cinayətlərdən biri, azərbaycanlıların kütləvi soyqırımı - Xocalı faciəsidir.

1989-1990-cı illərdə keçmiş Sovet İttifaqının bir çox respublikalarında milli silahlı qüvvələrin yaradılması tələbi ilə mitinqlər keçirilirdi. Erməni separatçıları yaranmış vəziyyətdən bacarıqla istifadə edərək, "azərbaycanlılar Qarabağın erməni əhalisinə təhlükə yaradırlar" bəhanəsi altında DQMV-dən hərbi xidmətə çağırılan erməni gənclərinin SSRİ silahlı qüvvələrinin o zaman vilayətdə yerləşən hərbi hissələrində, Stepanakertdəki (indiki Xankəndidə) 366-cı alayda və Martunidəki (indiki Xocavənd) sərhəd dəstəsində xidmət keçmələrinə nail oldular. Beləliklə, Azərbaycan ərazisində (keçmiş DQMV-də) Sovet ordusunun bazasında Azərbaycanın ərazi bütövlüyünə birbaşa təhlükə yaradan erməni silahlı dəstələrinin yaradılmasının ilkin mərhələsi başlandı.

1991-ci ildə Qarabağın dağlıq hissəsində azərbaycanlıların yaşadıqları bir çox yaşayış məntəqələri ermənilər tərəfindən işğal olundu. 1991-ci il hadisələri Dağlıq Qarabağ ətrafında gedən proseslərin mahiyyətini açdı. Azərbaycan Ermənistan tərəfindən gizlədilməyən təcavüz faktı qarşısında qaldı.

1992-ci ildə Azərbaycanda daxili ictimai-siyasi vəziyyət daha da gərginləşdi. Rusiyapərəst siyasət yeridən Azərbaycan prezidenti Ayaz Mütəllibov respublikanın MDB (Müstəqil Dövlətlər Birliyi) çərçivəsində Moskvanın maraqları orbitində qalmasına çalışır və milli ordunun yaradılmasını ləngidirdi. Bunun nəticəsidir ki, 1992-ci ilin əvvəllərində Azərbaycan Ordusu tam silahlanmamış iki tabordan (təxminən 300 nəfər), yaxşı təlim keçməmiş, vahid komandanlığı olmayan Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Komitəsi, XTMD (Xüsusi Təyinatlı Milis Dəstəsi) bölmələrindən, yerli özünümüdafiə qüvvələrindən və müxtəlif partiyaların könüllülərindən təşkil olunmuş dəstələrdən (ümumi sayı cəmi 2000 nəfərə qədər) ibarət idi.

Artıq 1992-ci ilin fevralında Dağlıq Qarabağda Rusiyanın köməyi ilə silahlandırılmış, Azərbaycanın ərazisində işğalçı müharibə aparmağa qadir erməni ordu bölmələri var idi. Bu dövrdən etibarən ermənilər Dağlıq Qarabağın tərkibində və ondan kənarda azərbaycanlılar yaşayan iri yaşayış məntəqələrinin işğalı planının həyata keçirilməsinə başladılar. Ermənistanla quru yol əlaqələri olmayan Qarabağ erməniləri ancaq hava yolu ilə kömək ala bilərdilər. Ona görə də ermənilər Qarabağda tələsik yeni vertolyot meydançaları hazırlayır, Gorus-Stepanakert (indi Xankəndi) və Gorus-Hadrut reysləri təşkil olunurdu. Vəziyyətə tam nəzarət etmək, eləcə də bütün istiqamətlərdə maneəsiz hərəkət etmək və Dağlıq Qarabağda olan yeganə aeroportu ələ keçirmək üçün Xankəndi ilə Əsgəran arasında yerləşən, azərbaycanlıların yaşadıqları Xocalı şəhərini ermənilər ələ keçirməli idilər.

### *26 Fevral - Xocalı faciəsi. Xocalının qəhrəmancasına müdafiəsi*

Xocalı Qarabağ hadisələri başlanmazdan əvvəl mərkəzindən Ağdam-Şuşa və Əsgəran-Xankəndi yolları keçən bir qəsəbə idi. 1988-ci ilə olan məlumata görə, qəsəbədə 2135 nəfər adam yaşayırdı. Dağlıq Qarabağda yeganə təyyarə meydanı da burada idi. 1988-ci ildə Ermənistandan qovulmuş azərbaycanlıların və Fərqanədən qaçmağa məcbur olan Ahıska türklərinin bir hissəsi də Xocalıda məskunlaşmışdılar. 1991-ci ilin ortalarında artıq burada 6300 insan yaşayırdı. Həmin ilin axırında ermənilərin şəhərə hücumlarından sonra əhalinin bir hissəsi Xocalını tərk etdi. Respublika Dövlət Təhlükəsizlik Xidmətinin məlumatına və digər sənədlərə əsasən faciəli fevral hadisələri ərəfəsində şəhərdə 3 mindən bir qədər çox adam qalmışdı. 1991-ci ilin oktyabrından Xocalı ilə avtomobil nəqliyyatı əlaqəsi kəsildi. 1992-ci il yanvarın 2-dən şəhərə elektrik enerjisinin verilməsi dayandırıldı. Azərbaycanla ancaq hava yolu ilə, vertolyotlar vasitəsilə əlaqə saxlanılırdı. Axırıncı mülki vertolyot yanvarın 28-də gəldi. Son dəfə fevralın 13-də hərbi vertolyot ərzaq və yanacaq gətirdi. Ermənilər tərəfindən edilən aramsız hücumlara, Azərbaycan rəhbərliyinin Xocalının taleyinə biganə münasibətinə baxmayaraq, əhali öz tarixi Vətənini tərk etmək istəmirdi. Şəhər mühasirədə yaşayırdı, ancaq təslim olmurdu.

1992-ci il fevralın 26-sı Azərbaycan tarixinə ən qanlı səhifələrindən biri kimi yazıldı. Fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri MDB-nin 366-cı alayının köməyi ilə Xocalı şəhərini işğal edərək dağıtdılar və yerli əhaliyə qarşı əsl genosid aktı törətdilər. Erməni yaraqlıları 366-cı alayın zabit və əsgərlərinin köməyilə şəhəri tanklarla və digər zirehli texnika ilə mühasirəyə alıb, bu qədim diyarın dinc əhalisini kütləvi şəkildə qırmağa başladılar. Xocalının müdafiəçiləri sayca qat-qat üstün, yaxşı silahlanmış, tankların və digər zirehli texnikanın dəstəyi ilə hücuma keçən düşmənin qarşısını almaq üçün fədakarlıqla döyüşdülər və dinc əhalinin şəhərdən çıxa bilməsinə şərait yaratdılar. Şəhərin müdafiəçiləri bu qeyri-bərabər döyüşdə öz mövqelərindən geri çəkilmədilər, onlardan bir çoxu əsl qəhrəman kimi döyüşdə həlak oldu. Milis kapitanı Əlif Hacıyev Xocalı aeroportunun müdafiəsində son nəfəsinə qədər vuruşdu. Milli ordunun zabiti baş leytenant Tofiq Hüseynov əhalini şəhərdən çıxardıqdan sonra yenə döyüşə girdi. Patronu qurtaran Tofiq Hüseynovu ayağından yaralayan ermənilər ona təslim olmağı təklif etdilər. Ancaq Tofiq sonuncu qumbara ilə özünü öldürərək düşmənə təslim olmadı. Səhərə qədər gedən döyüşdə onlarla döyüşçümüz qəhrəmancasına həlak oldu. Bir neçə nəfər yaralı halda düşmənə əsir düşdü. Ermənilər yaralı döyüşçü Faiq Əliməmmədova nə qədər işgəncə versələr də, "Qarabağ sizindir" sözlərini dedirdə bilmədilər. Təəssüf ki, döyüşçülərimizin qanı bahasına şəhərdən çıxmağa müvəffəq olan dinc əhalinin çox az hissəsi xilas ola bildi. Şəhərdən çıxanlar ermənilərin pusqularına düşərək 1000 nəfərdən çox insan yaralandı, 1275 nəfər əsir düşdü. Bu dəhşətli gecədə 613 nəfər öldürüldü və onların məyitləri də təhqirlərə məruz qaldı.

Xocalı faciəsinin 27-ci ildönümü tamam olur. Bu faciədə həlak olanların xatirəsi hər bir Azərbaycan vətəndaşı üçün əziz olmalıdır. Hər il fevralın 26-da bu dəhşətli faciəni yad edən hər bir azərbaycanlı ermənilərin vəhşiliyini unutmamalıdır.

### *Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması. Xocalının qisasını Azərbaycan əsgəri almalıdır*

Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində ardıcıl işlər aparılmış və 2010-cu il yanvarın 31-də İslam Əməkdaşlığı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının (İƏT Pİ) Uqandanın paytaxtı Kompala şəhərində keçirilən və 51 ölkənin parlament heyətləri, başçılarının iştirak etdiyi VI forumun təşəbbüsü ilə "İslam Əməkdaşlığı Təşkilatı Gənclər Forumu ilə İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqı arasında əməkdaşlıq haqqında" qətnamə imzalanmışdır. "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində qəbul olunmuş qətnamədə Xocalı faciəsinə "Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı"na siyasi qiymət verilmişdir. Qətnamədə "Xocalıya ədalət!" beynəlxalq kampaniyasına həm milli, həm də beynəlxalq səviyyədə tam dəstək verməyə çağıran bənddə öz əksini tapmışdır. Bu beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini "İnsanlığa qarşı cinayət" kimi tanıyan ilk sənəddir. "Xocalıya ədalət!" kampaniyasının fəaliyyətinin 9 ili tamam olur. Bu müddət ərzində kampaniyanın qarşıya qoyduğu məqsədlərə çatmaq üçün İKGF müxtəlif səviyyədə geniş iş aparmışdır. Bu baxımdan Xocalı soyqırımına beynəlxalq səviyyədə hüquqi, siyasi və mənəvi qiymətin verilməsinə nail olmaq üçün Gənclər Forumu faciəni beynəlxalq sənədlərdə insanlara qarşı cinayət və soyqırımı kimi tanınmasını kampaniya çərçivəsində əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir.

Soyqırımın tanıdılması və qətliama siyasi qiymət verilməsi istiqamətində görülən işlər artıq daha ciddi nəticələr verməkdədir. Belə ki, Xocalı soyqırımı 14-cü, 15-ci və 16-cı ildönümü Türkiyədə, Rusiyada, Almaniyada, ABŞ-da, Ukraynada, Qazaxıstanda, Gürcüstanda, Küveytdə və dünyanın bir çox ölkələrində qeyd edilmişdir. 2005-2007-ci ilin fevral ayında Türkiyə Böyük Millət Məclisinin xüsusi iclasında Xocalı soyqırımı ilə bağlı məsələ müzakirə olunmuşdur. 2011-ci il fevralın 19-dan 26-dək Türkiyənin ayrı-ayrı şəhərlərində "Xocalı həftəsi" adlı tədbirlər proqramı çərçivəsində müxtəlif anım mərasimləri, aksiyalar keçirilmiş və bu tədbirlər hər il davam etdirilir. Dünyanın bir sıra şəhərlərində də artıq bu tədbirlər geniş miqyas almışdır.

Xocalı soyqırımının ABŞ-da tanınması istiqamətində ilk addım 2010-cu il fevralın 25-də atılmışdır. Həmin gün Massaçusets ştatının Nümayəndələr Palatası Xocalıda qırğın törədilməsi faktının tanınması haqqında qətnamə qəbul etmişdir. 2011-ci il iyunun 11-də isə ABŞ-ın Texas ştatı Ermənistan tərəfindən Xocalıda çox ağır cinayət törədilməsi faktını tanımışdır.

Bu prosesin davamı olaraq 2012-ci il fevralın 22-də Nyu-Cersi ştatı, daha sonra isə Corciya ştatı Xocalı qətliamı ilə bağlı qətnamə qəbul etmişdir. 2012-ci il martın 23-də daha bir Amerika ştatı, Men ştatının Nümayəndələr Palatası Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar qətnamə qəbul etmişdir. Eyni zamanda Nyu-Meksiko ştatının, Arkanzas ştatının, Oklahoma ştatının, Missisipi ştatının, Pensilvaniya ştatının, Vest Virciniya ştatının, Tennesi ştatının Senat və nümayəndələr palatalarında qətnamələr qəbul edilmişdir.

Meksika Konqresinin Deputatlar Palatası, Pakistan Senatı, Kolumbiya Senatı, İordaniya Senatı, Peru Parlamenti, Bosniya və Herseqovina Parlament Məclisinin Xalqlar Palatası erməni silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalını, xüsusilə də Xocalıda soyqırımı törədilməsini kəskin pisləyən qərarlar qəbul etmişdir.

2015-ci il yanvarın 29-da İsrail dövlətinin prezidenti Reuven Rivinin BMT-nin Baş Məclisində Beynəlxalq Holokost Qurbanları Anma Günü ilə əlaqədar keçirilən tədbirdəki çıxışında dünyada törədilən soyqırımlar və kütləvi qətllər barədə danışarkən Xocalı soyqırımını da qeyd etmişdir.

Azərbaycan torpaqlarının 20 faizi düşmən tərəfindən işğal edilib. Həmin torpaqların düşməndən azad edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında məqsədyönlü daxili və xarici siyasət aparılır. Bu siyasət Azərbaycanın ərazi bütövlüyünün bərpasına yönəldilib. Ərazilərimizin bütövlüyünün bərpası vəzifəsi isə Azərbaycan Ordusunun üzərinə düşür.

Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o, öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır. Xocalı faciəsində, eləcə də ermənilər tərəfindən törədilmiş digər cinayətlərdə həlak olmuş soydaşlarımızın qisasını ancaq Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə almaq olar.

Aprel döyüşləri və Günnüt əməliyyatı Azərbaycan Ordusunun təxribat törədən, dinc sakinləri hədəfə alan və azğın düşmənimiz ermənilər üzərində şanlı qələbələri kimi tarixə düşdü. Bu qələbələr Azərbaycan xalqının cavanından, qocasından asılı olmayaraq heç vaxt erməni işğalı ilə barışmayacağını və daim döyüşə hazır olduğunu göstərdi. Ermənistanın hərbi-siyasi rejimi isə anladı ki, indiki Azərbaycan ötən əsrin 90-cı illərindəki Azərbaycan deyil. Azərbaycan Ordusu istənilən zaman öz torpaqlarını azad etməyə qadirdir və Xocalıda törədilən soyqırımın qisasını mütləq alacaqdır.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Gənclər günü ilə əlaqədar tədbir keçirilib



Müdafiə Nazirliyi və Füzuli rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 2 Fevral Gənclər Günü münasibətilə təntənəli tədbir keçirilib.

Öncə ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə çıxış edənlər bildiriblər ki, müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunun təşkili və 2 Fevral Gənclər Gününün təsis olunması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Ulu Öndərin əsasını qoyduğu gənclər siyasəti respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Qeyd edilib ki, Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellekti aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu var və Azərbaycan əhalisinin 31, ordunun 75 faizini təşkil edən gənclər ölkəmizin hərbi qüdrətinin artırılmasında, cəmiyyətimizin inkişafında böyük xidmətlər göstərərək, dövlət və ordu quruculuğunda fəal iştirak edirlər.



Sonda tədbir vətənpərvərlik ruhlu konsert proqramı ilə davam edib.

*Milli qəhrəmanlarımız*

# Qar çiçəyi

...O payız səhəri neçə vaxt idi ki, qəlbimizi alovlandıran dərdimizin üstünə su səpilmişdi sanki. Sabahın açılmasını səbirsizliklə gözlədik. Əlimiz çatmayan, ünümüz yetməyən, erməni vandallarında əsir qalan əzəli torpaqlarımızdan - Vətəndən oğullarımız "gəlirdi" Vətənə. Bütün xalq ayaq üstə idi. Sevgiylə, qürurla qarşılamalıydıq qəhrəman Vətən oğullarını. Qarşıladıq da. Ölkənin Ali Baş Komandanından sıravi Azərbaycan vətəndaşına qədər hər kəs Vətən, torpaq sevdalılarını qarşılamağa çıxmışdı. Gördüklərimiz Çanaqqala şəhidlərinə yüz illərlə bəslənilən ehtiramın və oxunan dastanların eyni idi. Kimi üçrəngli bayrağımıza sarılmışdı, kimi sevdalılarımızın keçdiyi yollara şəhid gülümüz qərənfilləri düzürdü. Şəkillərini sinələrində gəzdirən gənclər də izdihamın axınına qoşularaq irəliləyirdilər. Bəziləri isə "Şəhidlər ölməz, Vətən bölünməz" şüarını səsləndirirdilər. O səhər həmişə açılan səhərlərimizdən tamamilə fərqlənirdi. Sanki hər kəs Mübariz idi, Fərid idi. Sanki o gün "Qarabağ" adlı qəhrəmanlıq dastanımızın yeni boyu yazılırdı - "Mübariz, Fərid boyu". Vətən uğrunda, torpaq uğrunda torpağa düşən oğullarımıza, qar çiçəklərimizə qovuşduq o sabah. Ruhumuz təzələndi, Ay işığı tək yenidən nurlandı. Bu mənzərə qələbəmizin müjdəsi kimi görünürdü bizə. Xalq-ordu birliyi bu qələbəni yaxınlaşdırırdı. Xalqa bu inam müjdəsini onlar gətirmişdilər. Bu cığırı da onlar açmışdılar, qar çiçəklərimiz.

Azərbaycanımızın ilk şəhidləri Bəxtiyar, Əli 1988-ci ilin fevralında Qarabağda dəfn edilən-də doğulmuşdu Mübariz. Talelərinə ilk şəhidlik yazılan Bəxtiyar, Əli ölümləriylə qara günü, qara donlu, yollarına qara daşlar döşənmiş yağıların üstümüzə gəldiyini işarət etmişdilər. Sanki "düşməni yurdumuzu yağmalamağa qoymayın" demişdilər.

Elin, obanın ağsaqqalları ilk şəhidlərimizin qana boyanmış qönçə nəşini qucaqlayaraq hönkürüb ağlayıblar: "Yerinizə minlər doğulacaq. Şəhidlər zirvələrdə qərar tutur, Vətən, torpaq uğrunda şəhid olanlar unudulmur, bu min illərdir ki, belədir", - deyib millətin şəhid övladlarını torpağa tapşırıblar.

Beləcə yurdumuza qara daşların yağışı başlandı, xalqımızın minlərlə oğul və qızı Vətən uğrunda canından keçdi, şəhid oldu, yurd yerlərimiz yağılara əsir düşdü. Qarı düşmən qaranlıqlar ələdi alaca gözlü sabahlarımıza.

...Anası Mübarizə şirin laylalar, gələcəkdə oğul övladının Vətənə qəhrəman, igid əsgər olacağına oxşamalar deyərdi. Beşikdə uyuyan qayğısız körpəni isə böyüdükcə güllü yastıqlar, yorğanlar deyil, qanlı torpaq, Xocalı fəryadı çəkirdi. Bu fəryad getdikcə ona daha çox yaxınlaşırdı. Doğulduğu zaman şəhid olan Bəxtiyarla Əlinin tökülmüş qanı, bir də Qarabağda sərgərdan gəzən ruhlar çəkirdi Mübarizi.

Neçə illərdir yada yurd olmağa dözməyən ellərimizdə çağlayan çaylarımız da sanki qurudu, yağılar içməsin deyə qız həyalı bulaqlarımız gözlərini kor edib içlərinə axdılar. Millətimizin qaraçuxası yatdı elə bil, dərdli gözlərimizdə sevinc duyulmadı. Vətənin daş yollarına baş qoymaq arzuları ürəklərində qövr edən ahıllarımız yurdsuzluq dərdinə dözməyib, yurd dərdini əyinlərinə kəfən biçərək karvan kimi köçdülər, getdilər bu dünyadan.

Biz bu acıları yaşayarkən dəmə, Dədə Qorqud yurdu, Ozan yurdu Vətənimin hər bucağında, mahalında Mübarizlər, Fəridlər, Muradlar, Samidlər, Ruhinlər, Aqşinlər boy atıb böyüyürmüş. Nə yaxşı. Əvvəlcə bu dəcəllər o təpədən bu təpəyə atıldılar, at çapmağı öyrəndilər. Tapança düzəldib dava-dava oynadılar, "mövqe tutdular, istehkamlar qurdular, düşməni məğlub etdilər". Beləcə böyüdülər.

Mübariz böyüdükcə taxtadan hazırladığı oyuncaq silahlar da düşməndən qisas almaq üçün çiynində gəzdirdiyi ağır silaha çevrildi, qorxu hissi yad oldu ona. Tapdaq altında qalan uca zirvələrimizə çıxmaq üçün boyu boy görüncəyi kimi artdı, böyüdü Mübariz. Hərbçi olmaq, Qarabağa getmək istəyi baş qaldırdı qəlbində. Qarabağımız, Şuşamız uğrunda Vətənin şəhid olan minlərlə oğul və qızının qanını almağa, yurdunu yağıdan təmizləməyə, içinə axan həyalı bulaqlarımızın gözünü açmağa tələsirdi Mübariz. Sökülüb-dağılmış evlərimizin, talan olmuş ocaqlarımızın iniltisi qulaqlarından getmədi. Vətənə sevdalanan çinar boylu igid çox tələsirmiş ona qovuşmağa, ona görə də vaxt itirməyib, ata-anasına bir parça məktub yazmağa an-



caq səbri çatıb. Və tək yola çıxıb. Çox keçmədən qara donlu yağılarla təkbaşına savaşıb, qələbə üçün. Sonra da sevdalandığı VƏTƏN adlı sevgisinə qovuşub, əbədi baş qoyub sinəsinə.

Bu dərdlərimizin əlacı isə böyüyən yüyürək oğullarımızdır. Mübarizlər, Fəridlər, Ruhinlər,... və minlər. Tarixin yaddaşında ən böyük, ən güclü orduların, qəddar imperiyaların belə dünyanın ən kiçik xalqını yer üzündən sildiyi haqqında məlumatlar yoxdur. Çünki hər bir xalqın, kiçik tayfanın belə ölənlərinin yerinə minlər doğulur, şəhidin qanı düşdüyü torpaqdan minlər pöhrələnir.

Bizim də Vətən, yurd dərdinə dözməyən oğullarımız böyüdü, böyüyür. Mübariz əsgər dostlarına deyirmiş ki, çətini bu addımı atmaq, bu yolu başlamaqdır, ardınca minlər gələcək. Yolu da özü açdı, ilk addımı da özü atdı və yanılmadı. Açılmış yolun cığırlarını ot basmağa qoymayan minlərlə Mübarizlər pöhrələndi yerindən. Şəklini sinələrinə taxdılar, ürəklərində gəzdirdilər, ona bənzəmək istədilər. Ardınca aprel şəhidləri Mübarizin getdiyi yola getdilər. Aprel şəhidlərimizin əziz xatirəsinə yazdığım bir yazımda Mübariz məktəbinin gənclərimizdə yaşantılarını sözün gücündə göstərmişdim. "Yurd sevdasının içimizdə alovlanmasında Milli Qəhrəmanımız Mübariz İbrahimovun atdığı addım böyük məktəb oldu. Gənclərimiz bu qəhrəmanlığı bədii əsərlərdən oxuyub, kinolardan öyrənmədi, yaşadığı həyatında gördü, müasiri oldu. Gənclərimizin ümidlərini yaşatdı, zəfərə inamsızlıq yarasını sardı, sağaltdı, özünə güvəni toxum kimi təzədən cücərtdi. Mübariz xalqına bu mesajı verdi: "Zəfər, zəfər mənimdir", - deyə bilənindir. Mən bu torpağa zəfərə inamın toxumunu əkdim, qanımla suvardım, siz onu yaşadın, böyüdün!" Və aprel döyüşlərində biz Murad Mirzəyevin, Samid İmanovun, Raquf Orucovun və başqa Vətən övladlarımızın şəhid düşdüyü torpaqda düşmənə yenildiyini qəbul etdirib, "Zəfər bizimdir" deyə bildik.

Bir zamanlar belə bir rəvayət oxumuşdum ki, qədimdə, saatın, əqrəbin, günün, tarixin olmadığı dövrlərdə insanlar ilin, fəslin gəlişini-gedişini, axşamın düşməsini, sabahın açılmasını havadan, göydən, torpaqdan, suyun buxarlanmasından bilirmişlər. Yazın gəlişinin müjdəçisi isə çoban imiş. Kolun dibində qarın altından baş qaldıran çiçəyi görən çoban sevinə-sevinə eləobaya yaz müjdəsi gətirər, xələt alarmış. Qar çiçəyi çıxıbsa, deməli, yaz gəlir...

Mübariz də bax, o qar çiçəyi tək qələbəmizin ilk müjdəçisi - qar çiçəyidir. Sən xalqımıza qazanacağımız qələbəmizin müjdəsini gətirən, ümidlərimizin qarını əridən, buzunu sındıran həmin o qar çiçəyisən, qəhrəman Vətən oğlu! Millətimizin tarixinə 2010-cu ili şərəflə yazdın. 2010-cu il adınla tarixləşdi. Qəhrəmanlığın Ali Baş Komandan tərəfindən də yüksək qiymətləndirildi. Elinin oğlu Fəridlə bərabər sizi bu Vətənə layiq şəkildə qarşıladı və son mənzilə özü uğurladı.

...Əlimizdə çiçək Mübarizin məzarına yaxınlaşırdıq. Sanki üstünə qan çilənmiş çiçəklər hələ solmamışdı, gəlib-gedənlər də çox idi. Qərənfillərin rənginə qara xal düşüb burada. Hər kəs sakit, ehmalca qəhrəmanın məzarına baş əyir, Yaradana dua edir, çiçəklərini sevgiylə sinəsi üstünə qoyurdu. Hava qaralır, hamı yavaş-yavaş ayağını çəkirdi. Mübariz ağ mərmərdən boylanırdı qar çiçəyi kimi...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# ”Paşinyan anlamalıdır ki, münaqişənin həlli Ermənistanın müstəqilliyinə təkan verəcək”

*Ermənistanın baş naziri Nikol Paşinyan Almaniyaya səfəri çərçivəsində bir neçə bəyanatla çıxış edərək, "Azərbaycan tərəfinin güzəştləri; münaqişənin həllinin Dağlıq Qarabağ və Ermənistan xalqları üçün məqbul olması" kimi fikirlər səsləndirib.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva məsələyə münasibət bildirib. O deyib: "İlk növbədə, xatırlatmaq istərdim ki, münaqişə nəticəsində məhz Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu işğal olunub və onun bir milyona yaxın əhalisi etnik təmizləməyə məruz qalaraq məcburi köçkünə çevrilib. Münaqişənin həlli ilə bağlı qəbul olunan beynəlxalq qətnamə və sənədlər, ilk növbədə, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi işğalçı erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Münaqişənin həlli ilə bağlı qəbul olunan bütün sənədlərdə və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin təkliflərində söhbət "xalq" yox, erməni və azərbaycanlı əsilli iki əhalidən gedir. Ermənistanın baş naziri kimi Nikol Paşinyan anlamalıdır ki, münaqişənin həlli Ermənistanın müstəqilliyinə təkan verəcək və ilk növbədə, Ermənistan əhalisi üçün böyük iqtisadi imkanlar açacaq yeni siyasi vəziyyət yaradacaq”.

# "Fiziki hazırlığımızı artırırıq"

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin fiziki hazırlıqla məşğul olmasının şahidi olduq. Baş leytenant İsmət Hacıyevin göstərdiyi bütün elementləri əsgərlər dəqiqliklə yerinə yetirirdilər. Hiss olunurdu ki, bölmənin şəxsi heyəti müntəzəm olaraq idmanla məşğul olur. Məşğələ bitdikdən sonra onlarla həmsöhbət olmaq imkanı qazandıq.*



Öyrənirik ki, baş leytenant İsmət Hacıyevin atası Qarabağ müharibəsi veteranıdır. "Atam həmişə deyərdi ki, oğul, Vətənimizin bu ağır günlərində sizin kimi övladlarına ehtiyacı var. Nə qədər ki, düşmən ata-baba yurdumuzda sərbəst gəzir, bizlərə rahatlıq yoxdur. Mən də atamın arzusunu həyatımın amalına çevirdim. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində mənimsədiklərimi əsgərlərimə öyrədirəm. Çalışıram ki, onlar fiziki cəhətdən güclü, möhkəm, dözümlü və ən əsası sağlam olsunlar. Çünki insanın sağlamlığı ən başlıca amillərdən biridir".

Sərbəst güləş üzrə respublika birincisi olan əsgər Şirməhəmməd Əliyev bildirdi ki, hər bir idmançı ilk gündən yalnız uğur qazanmaq və həmişə birinci olmaq haqqında düşünür. "Bunun üçün gərgin əmək, müntəzəm məşqlər, nizam-intizam və ən əsası özünütərbiyə tələb olunur. Psixoloji cəhətdən də möhkəm olmaq uğura aparan vacib şərtlərdən biridir. Unutmamalısan ki, müvəffəqiyyətlər və uğursuzluqlar mütəmadi olaraq baş verir. Buna da hər an hazır olmalısan. Hərbi xidmətdə olmağımıza baxmayaraq, günün nizam qaydasına uyğun olaraq idmanla məşğul oluruq, fiziki hazırlığımızı artırırıq. Komandirlərimiz də çalışırlar ki, tabeliyində xidmət edən əsgərlər fiziki cəhətdən güclü olsunlar. Həmişə deyirlər ki, döyüş meydanında düşməni törətdiklərinə görə peşman etməliyik. Arzu edirəm ki, yarışlarda olduğu kimi, üçrəngli bayrağımızın Qarabağımızın ən uca zirvəsində dalğalanmasının şahidi olum".

- İdman artıq hər birimizin həyat tərzinə çevrilib. Uşaq vaxtlarımdan idmanın güləş növü ilə məşğul oluram. Həmişə istəmişəm ki, tatamidə erməni idmançısı ilə qarşılaşım. Ancaq bu hələ ki, mənə qismət olmayıb. Əlbəttə ki, bütün istiqamətlərdə olduğu kimi, idmanda da düşməndən üstünük. Bunu idmançılarımız dəfələrlə sübut ediblər. Məşqçimiz bizləri həmişə qalibiyyətə motivasiya edirdi. Komandirlərim də bunun üçün əllərindən gələni əsirgəmirlər. Belə cəsur, mərd, qorxmaz və peşəkar komandirlərimizlə birgə xidmət etməyimlə qürurluyam. Bəlkə də idman karyeramı davam etdirməyəcəkdim. Zabitlərimizin sayəsində həvəsdən düşmədim, həm də fiziki formamı qoruyub saxlaya bildim. Hərbi xidmətdən sonra da idmanla məşğul olmağa davam edəcəm. Çox istəyirəm ki, beynəlxalq yarışlarda birincilik əldə edim, Vətənim Azərbaycanın Dövlət himnini səsləndirim, - bu sözləri əsgər Kənan Seyidov dedi.

Digər əsgərlər Elmin Məmmədov, Pərviz Əsədli, Rusif Şabıyev və Elcan Paşazadə də bildirdilər ki, hər gün idmanla məşğul olaraq, fiziki güclərini artırırlar. Bu isə o deməkdir ki, döyüş meydanında düşməndən cəld və güclü olacaq, qalib gələcəklər.

**Baş leytenant Ruslan HƏSƏNZADƏ, "Azərbaycan Ordusu", foto C.CƏFƏROVUNDUR**

*Hərbi texnikalar, silahlar*

# Radiolokasiya stansiyası





Artıq 70 ildən çoxdur ki, quruda, dənizdə və havada düşmənin axtarışı zamanı radiolokasiya üsulundan istifadə edilir. Siqnalları qəbul edən və ötürən qurğular radiolokasiya stansiyası və ya radar adlanır. Hazırda müasir dünyanı radiolokasiya stansiyasız təsəvvür etmək mümkün deyil. Onlardan aviasiyada, dəniz daşınmalarında istifadə edilir, radiolokasiya stansiyalarının vasitəsilə yerin üst qatının şəkli çəkilir, yol hərəkəti qaydalarını pozanları aşkar etmək olur. Radiolokasiya kompleksləri kosmik sənayedə və naviqasiya sistemlərində də öz istifadəsini tapıb. Daha çox bu vasitələr hərbi sahədə istifadə olunmağa başlayıb. Münaqişələr zamanı ən iri iştirakçı dövlətlər də fəal olaraq radiolokasiya stansiyalarından düşmənin gəmi və təyyarələrini aşkar etmək və kəşfiyyat aparmaq üçün istifadə edirlər. Bu gün radiolokasiya stansiyalarından hərbi sahədə geniş spektrdə tapşırıqları yerinə yetirmək üçün istifadə olunur. Onlar qitələrarası ballistik raketlərin buraxılmasını izləməkdən tutmuş artilleriya kəşfiyyatına qədər olan vacib tapşırıqları yerinə yetirirlər. Hər bir təyyarə, helikopter və hərbi gəminin özünün radiolokasiya kompleksi vardır. Radarlar hava hücumundan müdafiənin əsas sistemi sayılır. Bu vasitələr öz ölçülərinə, xüsusiyyətlərinə və təyinatlarına görə fərqlənən qurğulardır. Rusiya radiolokasiya stansiyasının hazırlanması üzrə dünya liderləri sırasındadır. Radiolokasiya radio dalğaları vasitəsilə ərazidə olan obyekt və əşyaların aşkaretmə metodudur. Hansı ki, radiolokatr və radiolokasiya stansiyası adı altında qurğunu şüalandırır və qəbul edir. Radarlar müəyyən ərazidə aşkar etdiyi obyektin hündürlüyünü, ölçüsünü və sürətini göstərə bilir. Hər hansı bir radiolokasiya stansiyası mürəkkəb radiotexniki qurğudur və bir çox komponentlərdən təşkil olunub. Hər bir radarın tərkibinə üç əsas element daxildir: siqnal ötürücüsü, antena və qəbuledici. Bütün radiolokasiya stansiyaları iki böyük qrupa bölünür - impulslu və fasiləsiz olaraq fəaliyyət göstərənlər. Onu da qeyd etmək lazımdır ki, bütün müasir müşayiət radarları impuls sxemi üzrə hazırlanıb. Elə radiolokatorlar da mövcuddur ki, onlar siqnalların ötürülməsi və qəbul edilməsini müxtəlif antenalarla həyata keçirir və onlar bir-birlərindən müəyyən qədər aralı məsafədə yerləşirlər. RLS-nin antenası hər tərəfə elektromaqnit dalğaları buraxır və müəyyən sektorda işləyir. Radarın şüası spiral formasında istiqamətləndirilir və konus formasını alır. Bu radarların işində əsas problemlərdən biri isə yerin üst qatı, dağlar və təpələrdir. Radiolokasiya stansiyaları təyinatlarına görə müxtəlif tezlikdə işləyirlər.

Müasir fazalı, çərçivəli radiolokasiya stansiyaları beşinci nəsildən olan qırıcıların üzərində də quraşdırılır.

**Hazırladı: Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

# İdman

## Qadın güləşçilərimiz Fransadan üç medalla qayıdırlar



Fransanın Nitsa şəhərində güləş üzrə Qran-Pri turniri keçirilib. Qadın güləşçilərimiz üçün ilin ilk yarışı uğurlu alınıb.

10-a yaxın ölkənin idmançılarının mübarizə apardığı yarışda yığmamız baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında 2 qızıl və 1 bürünc medal qazanıb.

Alyona Kolesnik (57 kq) və İrina Netreba (65 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Səbirə Əliyeva (76 kq) isə üçüncü yeri tutub.

Qran-Pri turnirində III dərəcəli beynəlxalq hakim Bəşir İsazadə ədaləti qoruyub.

## Güləşçilərimiz İstanbulda beş medal qazanıblar



İstanbulda keçirilən Vehbi Əmrə və Hamit Kaplanın xatirə turnirinə yekun vurulub. On bir ölkədən 200-ə yaxın güləşçinin mübarizə apardığı yarışın sonuncu günündə yığmamız daha iki medal qazanıb.

Murad Məmmədov (60 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Oyan Nəzəriani (130 kq) isə gümüş medala sahib olub.

Beləliklə, millimiz ənənəvi turniri 5 medalla başa vurub. Xatırladaq ki, daha öncə Taleh Məmmədov (63 kq) ikinci, Rafiq Hüseynov (82 kq) və Orxan Nuriyev (97 kq) isə üçüncü yeri tutublar.

Yekunda 114 xal toplayan komandamız dördüncü yeri tutub.

## Azərbaycan şahmatçısı açıq Bolqarıstan çempionatında mübarizəyə qələbə ilə başlayıb



Fevralın 3-də 41-ci açıq Bolqarıstan çempionatı - Q.Trinqov memorialı start götürüb.

Plovdiv şəhərində təşkil olunan turnirə 14 ölkədən 90 şahmatçı qatılıb. Yarışın "A" turnirində azərbaycanlı Kənan Qarayev də mübarizə aparır. Təmsilçimiz turnirin ilk oyununda yunanıstanlı Odysseas Panaqiotis Qavriili məğlub edərək aktivinə 1 xal yazdırıb. Təmsilçimiz ikinci turda yerli şahmatçı Nadya Tonçeva ilə qarşılaşacaq.

İsveçrə sistemi üzrə 9 turdan ibarət turnirə fevralın 10-da yekun vurulacaq.

## Ağır atletika üzrə Azərbaycan çempionatı keçiriləcək




Fevralın 7-8-də Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasında kişilər və qadınlar arasında ağır atletika üzrə Azərbaycan çempionatı keçiriləcək. Gənclər və İdman Nazirliyinin, Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) birgə təşkil etdiyi yarışda ölkənin bütün bölgələrindən 100-ə yaxın atlet qüvvəsini sınayacaq.Çempionatın keçirilməsində əsas məqsəd idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsi, texniki cəhətdən hazırlıqlı və dərəcə normalarını yerinə yetirməyi bacaran idmançıların seçilməsi, kişilərdən və qadınlardan ibarət milli komandaların tərkibinin müəyyənləşdirilməsi, onların qarşıdakı beynəlxalq yarışlara hazırlanmasıdır.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 89
Nüsxə 3950